**Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illər Azərbaycan təhsilinin tarixində yüksək inkişaf, islahatların daha da dərinləşməsi, təhsilin elmi əsaslara söykənən Dövlət Proqramı vasitəsilə idarə olunması dövrü kimi xarakterizə olunur. Heydər Əliyevin milli təhsil quruculuğu strategiyası ölkənin sosial-iqtisadi inkişaf hədəflərinə, milli-mənəvi, bəşəri dəyərlərin qorunub inkişaf etdirilməsinə, təhsildə köklü islahatlar aparılmasına əlverişli zəmin yaratmışdır.**



# Ümummilli Lider Heydər Əliyevin yeni təhsil siyasətinin mühüm aspektləri

Təhsil siyasəti hər bir ölkənin strateji məqsədlərində birinci yerdə durur, inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi qəbul edilir.Təhsil siyasəti öz sosial, iqtisadi, siyasi və mədəni səviyyəsi ilə təşəkkül tapır, inkişaf edir. Dünyada təhsil sistemlərinin eyniyyət təşkil etdiyi ölkələr yoxdur. Bu baxımdan onları fərqləndirən səbəb həmin ölkələrdə həyata keçirilən sosial-iqtisadi, siyasi, mədəni inkişafın müxtəlifliliyi və dəyərlər sistemidir. Təhsil sisteminin dəyişikliyi cəmiyyətin sosial-iqtisadi, siyasi-mədəni dəyişikliklərinə mütənasibdir. Sovetlər Birliyində respublikamızın təhsil sistemi beş dəfə - 1921, 1958, 1966, 1984 və 1988-ci ildə yenilənmişdir. Bu yeniləşmə-dəyişmələr məktəb tiplərini, onların tərkibini, təlim müddətini, qarşılıqlı əlaqələri əhatə etmişdir. Respublikamız müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ilin dekabrında "Azərbaycan Respublikasının təhsil qanunu" qəbul edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışıyla Azərbaycan təhsilinin inkişafında yeni dövr başladı. Respublikamızın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də genişmiqyaslı islahatlar aparılmış, ümumi və ali təhsilin məzmunu, pedaqoji prosesin təşkili, təhsil sistemində islahatlara dair dövlət siyasətinə və tədris prosesinin modernləşdirilməsi tələblərinə cavab vermişdir. Buna görə də təhsil sisteminin müasir problemlərinin fəlsəfi, pedaqoji psixoloji aspektlərinin qarşılıqlı əlaqə və vəhdətdə öyrənilməsi, müasir şəraitdə milli-mənəvi ümumbəşəri dəyərlərin prioritetliyi gözlənilmişdir. Ölkədə demokratikləşmə çərçivəsində vətəndaş cəmiyyətinin əsasını təşkil edən ictimai təşkilatların təhsilin idarə olunmasında iştirakına şərait yaradılmışdır. Azərbaycanda təhsil sistemi aşağıdakı prinsiplərə uyğun qurulmuşdur: təhsilin dövlət və ictimai səciyyəsi.

Təhsilin maddi-texniki bazası dövlətə məxsusdur. Təlim-tərbiyə müəssisəsi əsasən dövlət orqanları tərəfindən açılır və bağlanır. Beləliklə, təlim-tərbiyə müəssisələrinin fəaliyyətində dövlət idarələri ilə yanaşı, ictimai təşkilatların iştirakı təhsilin dövlət və ictimai səviyyəsini ehtiva etmişdir. Respublikada təhsil hər bir vətəndaş üçün əlçatan olmuşdur. Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə tədris müəssisələrində humanitar istiqamətə ayrılan vaxtın və faiz nisbətinin yüksəlməsi nəticəsində Azərbaycan xalqının mənəvi, estetik sərvətləri və ümumbəşəri dəyərlər müntəzəm öyrədilməyə başlanmışdı. Cəmiyyət haqqında biliklərə, bacarıq və vərdişlərə diqqətin artırılması, tədris prosesində cəmiyyətdə baş verən müasir ictimai-iqtisadi hadisələrlə və mədəni həyatla geniş miqyasda əlaqələndirilməsi respublikamızda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda mühüm addım idi.



Ulu öndər Heydər Əliyevin formalaşdırdığı yeni təhsil siyasətində vahidlik və varislik təsbit olunmuş və müxtəlif cəhətlərdən təmin edilmişdir. Bütün tədris müəssisələri başlıca məqsədə - Azərbaycan xalqının ehtiyaclarını ödəməyə xidmət etmiş, təhsil sisteminin bütün sahələrində cəmiyyətin hər bir sinfindən, təbəqəsindən olan şəxslərin təlim ala bilməsi üçün şərait yaradılmış, vahid tədris planları və proqramları tətbiq olunmuşdur. Təhsilin bir pilləsindən digərinə keçməyə əsas verən biliklər, bacarıq və vərdişlər sistemini əhatə edən varislik təmin olunmuşdur. Təhsilin bütün pillələrində gənc nəslə cəmiyyət və təbiət haqqında real biliklərin verilməsi nəzərdə tutulmuş, dünyəvilik prinsipləri təmin olunmuşdur: dövlət təlim-tərbiyə müəssisələrini dini ibadət yerlərindən ayırmışdır, bu müəssisələrdə din tədris olunmur, dini ayinlər icra edilmir. Vicdan azadlığı təmin edilir, dini məzhəbə görə heç kimə üstünlük verilmir, təhsilalanlara yalnız dini dünyagörüşü aşılanır.



Ümummilli Liderin təhsil siyasətində ölkəmizin etnomüxtəlifliyi nəzərə alınmış, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinə tədris müəssisələrində təlim-tərbiyə alması üçün bərabər imkanlar yaradılmışdır. Təhsildə xalqların hüquq bərabərliyi ümumbəşəri prinsipi bərqərar olmuşdur. Təhsildə gender bərabərliyi öz həllini tapmış, təlim-tədris prosesində kişi və qadınların hüquq bərabərliyi təmin edilmişdir. Bilavasitə Prezident Heydər Əliyevin nəzarəti ilə təlim-tərbiyə müəssisələri üçün tədrisin məzmununu, yeni tədris planı və proqramı, dərslikləri tərtib edilərkən Azərbaycan xalqının həyatı, onun tarixi, mədəniyyəti, adət-ənənələri, bütün dünya xalqları üçün gərəkli sayılan bilik və bacarıqları özündə ehtiva edən ümumbəşəri dəyərlər ön plana çəkilmişdir.

Ulu öndərin böyük qayıdışı ilə Azərbaycanın təhsil sistemində demokratikləşmə geniş vüsət aldı, təhsil həyatı aşağıdan yuxarıya demokratik prinsiplər əsasında idarə olunmağa başladı. Təlim-tərbiyə müəssisələrində şagird və tələbə özünüidarələri yaradıldı və məsələlərin müzakirəsinə başlanıldı, təhsil işlərinin idarə olunmasında ictimai qurumların iştirakı reallaşdı.

Müstəqilliyimizin ilk illərinin acı təcrübəsindən nəticə çıxararaq təhsilalanların süni şəkildə kütləvi siyasiləşdirilməsinin, mənfur siyasi oyunlara cəlb edilərək beyinlərinin yuyulmasının qarşısını almaq məqsədilə təhsildə siyasi fəaliyyətin yol verilməzliyi ümumbəşəri dəyər kimi əsaslandırıldı. Respublika tədris sisteminin əhatə etdiyi təlim-tərbiyə müəssisələrində heç bir partiyaya üstünlük verilməməsi bu müəssisələrin fəaliyyətinə müdaxilələrin yol verilməzliyi və həmin müəssisələrdə təlim zamanı tədris mövzuları hesabına siyasi partiyaların ictimai-təşkilat və hərəkatların ideyalarını təbliğ etmək qadağan olundu.

Ümummilli lider Heydər Əliyev 1998-ci ildə təhsil siyasətində islahatlar aparılmasına dair xüsusi Sərəncam imzaladı. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramı" 1999-cu il iyunun 15-də Ulu Öndər tərəfindən təsdiq edildi.

Proqramda mərhələlər üzrə təhsil siyasətinin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatlar aparılması milli təhsilin inkişafına güclü stimul verdi. Ulu öndər deyirdi: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaradılmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin bir qanun yaradasan".

13 iyun 2000-ci ildə "Azərbaycan Respublikası təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzalamaqla ulu öndər ölkədə təhsilin təşkilinin və inkişafının yeni mərhələsinin başlanğıcını qoydu. 2001-ci ilin iyun ayında "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili haqqında" Azərbaycan Respublikası qanunu təsdiq etdi. Həmin qanunda dövlətin vəzifələri müəyyənləşdirildi, sağlamlıq imkanları məhdud uşaqların, onların valideynlərinin xüsusi təhsil sahəsində hüquq və vəzifələri öz əksini tapdı.

Ulu öndər Heydər Əliyevin təhsil strategiyası çox geniş, aydın və inkişafetdirici strategiyadır. Heydər Əliyev irsinin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu strategiyanı zamanın tələbinə və dünyanın inkişaf tempinə uyğun uğurla davam etdirir.

**Ceyhun NƏCƏFOV,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru.**

